*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 197-200* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091) Könül Məmmədova*

# CƏFƏR CABBARLININ TEATR DÜŞÜNCƏLƏRİ
## *(Cümhuriyyətəqədərki dövri mətbuatın materialları əsasında)*

***Xülasə***

Cabbarlı haqlı olaraq qeyd edir ki, aktyor səhnədə oynadıqlarını özü yaşamalıdır. Dramaturqun fikrincə, aktyor rolunu yaxşı ifaetmək, canlandırmaq üçün bütün qüvvəsini işlətməkdən başqa, özündən əvvəl oynayanları təqlid etməməli, özündən yeni, yaradıcı hərəkətlər göstərməlidir.

Cəfər Cabbarlı dərin zəkaya, nadir dramaturji istedada malik böyük şəxsiyyət idi. Onun fikrincə, aktyor səhnəyə mənfəət xatirinə gəlməməli, səhnədən, teatrdan mənəvi zövq almağı bacarmalıdır. Ədib Hüseyn Ərəblinski, Abbas Mirzə Şərifzadə, Hacı Hacınski, Hacıbala Şərifzadə və başqa bu kimi bütün həyatını, varlığını sənətə, səhnəyə bağlayan, ağır, çətin şəraitə, mənəvi sıxıntılara baxmayaraq, qəlbi, ruhu ilə teatrı işığa, nura qərq edən, tamaşaçılara sənət sevincləri yaşadan, gənclərə örnək olan aktyorları yüksək dəyərləndirirdi.

**Açar sözlər:** Cəfər Cabbarlı, teatr, opera, aktyor, mədəniyyət

## JAFAR JABBARLI'S THEATER THOUGHTS
### *(on the basis of the materials of pre-Republican periodical press )*

***Summary***

In the pre-Republican press, the young and talented Jafar has been exposed with open and secret autographs, small-volume articles, and compact information about theatrical performances. In each of his writings, he illustrates the different problems of theater, the art of the stage, the complexity of the environment, the lack of professional actors, the inability to train personnel for the national scene, the incompatibility of the portrayal, the lack of professionalism, the artistry, some of the dramatic works, the simplicity of language, the language of translations made by foreign playwrights, the sophistication, the discrepancy between the idea of the performance, the content and the music, and so on. Jabbarly's sensitive attitude to the art, the bitterness and joy of this art temple is due to the young writer's longing for and hoping for this area of art. Jafar Jabbarly rightly viewed the theater as a cultural criterion, a barometer of art and an indicator of evolution.

In the scientific article, theater issues were investigated in Jafar Jabbarli's works published by the periodical press organs till the Republic period, his thoughts about the art of actor were brought together and evaluated.

**Key words:** Jafar Jabbarli, theatre, opera, actor, culture

## МЫСЛИ О ТЕАТРЕ ДЖАФАРА ДЖАББАРЛЫ
### *(на основе матералов в предреспубликанской прессе)*

***Резюме***

В предреспубликанской прессе молодой и талантливый Джафар написал статьи о театральных постановках, небольшие статьи и компактную информацию под открытымии секретными подписями. В каждом из своих сочинений он иллюстрирует различные проблемы театра, искусство сцены, сложность среды, отсутствие профессиональных актеров, неспособность подготовить кадры для национальной сцены, несовместимость изображения, недостаток профессионализма, артистизм, некоторые драматические произведения, простоту пьесы, язык переводов иностранных драматургов, лирику, неоднозначность между идеей пьесы, содержанием пьесы и т.д. Чувственное отношение Джаббарлы к искусству, горечь и радость этого художественного храма

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. E-mail: konul282018@mail.ru

обусловлены стремлением молодого писателя и надеждой на эту область искусства. Джафар Джаббарлы справедливо рассматривал театр как культурный критерий, барометр искусства и показатель эволюции.

В научной статье были исследованы вопросы театра в произведениях Джафара Джаббарлы, издававшихся органами периодической печати до периода Республики, обобщены и оценены его мысли об актерском искусстве.

**Ключевые слова:** Джафар Джаббарлы, театр, опера, актер, культура

**Giriş.** Böyük Azərbaycan sənətkarı, bənzərsiz söz ustası, bədii-estetik düşüncəmizin qüdrətli nümayəndəsi Cəfər Cabbarlı hələ uşaqlıq, yeniyetməlik illərindən milli teatra, aktyor sənətinə, səhnə həyatına sonsuz həvəs göstərmiş, Bakıdakı Üçüncü ali-ibtidai məktəbdə (1909-1915) oxuduğu illərdən mədəniyyət, incəsənət sahəsinə vurğunluğunu gizlətməmiş, xüsusilə teatr tamaşalarına səmimi sevgi və rəğbət bəsləmiş, müxtəlifjanrlı bədii yaradıcılıq nümunələri yazmağa başlamışdır. Müqtədir sənətkar ilk dram əsəri olan "Vəfalı Səriyyə"nin birinci variantını 1912-ci ildə qələmə almış, əsərin daha mükəmməl versiyasının tamaşaya qoyulması üçün 1916-cı il 9 mart tarixində – 17 yaşında ikən Tiflis Senzura İdarəsindən icazə almağa müvəffəq olmuşdur. Təqdirəlayiq faktdır ki, Cümhuriyyətəqədərki dövrün mətbuat səhifələrində gənc və istedadlı Cəfərin teatr tamaşaları haqqında açıq və gizli imzalar ilə yazdığı resenziyalara, kiçikhəcmli məqalələrə, yığcam informasiyalara təsadüf olunur. Hər bir yazısında teatrın, səhnə sənətinin fərqli problemlərini dövrün, mühitin mürəkkəb, tutqun fonunda işıqlandırır: peşəkar aktyorların qıtlığı, milli səhnə üçün kadr hazırlığının mümkünsüzlüyü, əlbisə biçiminin obrazlar ilə uyğunsuzluğu, peşəkar, milli aktrisaların yoxluğu, səhnə tərtibatının, dekorasiya işinin zövqsüzlüyü, zəifliyi, bəzi dram əsərlərinin süniliyi, bəsitliyi, xarici dramaturqların əsərlərindən edilmiş tərcümələrin dilinin qəlizliyi, bayağılığı, tamaşanın ideyası, məzmunu ilə musiqi tərtibatı arasındakı uyarsızlıq və s. Yeni yaranmaqda, ilk addımlarını atmaqda olan sənət məbədləri üçün bütün bu sadalanan problemlər azmış kimi, bir tərəfdən də teatrın tərəqqisinə, taleyinə məsul olan şəxslərin – xüsusilə rəhbərliyin, təşkilatçıların məsuliyyətsiz, qeyri-peşəkar hərəkətləri, tamaşaçıların əsəblərinin gərginliyinə hesablanmış yarıtmaz iş üsulu, soyuq və biganə münasibət az qala teatrsevərlərin mətbuat orqanlarında hər gün rastlaşdığı və ürəkağrısı ilə tanış olduğu məlumatlar idi...

Belə üzücü, acınacaqlı vəziyyəti dəfələrlə müşahidə edən gənc Cəfər Cabbarlı 1916-cı ilin mart ayında yaxın dostları və yaşıdları ilə bərabər Bakıda Artistlər Klubunda üzləşdikləri xoşagəlməz hadisə haqqında geniş oxucu auditoriyasının diqqətinə "Yeni iqbal" (1915-1917) qəzeti vasitəsilə "Açıq məktub" ünvanlamışdır. Həyəcan və qəzəb dolu, altı nəfər tamaşaçının imzaladığı məktubda deyilirdi: "Cümə günü "Artistiçeski Klub"un zalında "Bəxtsiz cavan" və "Daşım-daşım" oyunları mövqeyi-tamaşaya qoyulacaq idi. Biletlər satılandan sonra müdiri-məsul H.Məcidov pulları cibişdanə qoyub daban alır... Camaat oyunun axırına qədər gözləyirsə də məqsədinə çatmıyor. Hamı deyir ki, müdiri-məsul qaçıb. Ar olsun bu yalançı artist və ac müdiri-məsula ki, onsuz da ölmüş dramın daha da tez ölməyinə səbəb olur.

Camaat tərəfindən vəkil olunmuş tamaşaçılar: Cəfər Cabbarov, Məhəmməd Cavid Cavadov, Nemət Quliyev, Məhəmməd Tağı Zamanov, Əli Cəfər Oxlu, Qafar Quliyev" [1].

O dövrün mətbuat orqanlarından "Yeni iqbal"la yanaşı, "Bəsirət", "Doğru söz", "Açıq söz", "Sovqat", "Tuti" və b. qəzet və jurnal səhifələrində Üzeyir bəy Hacıbəyli, Seyid Hüseyn Kazımoğlu, Böyükağa Talıblı, Abbas Mirzə Şərifzadə və digər sənət adamlarının teatr və tamaşaçı probleminə fərqli rakurslardan yanaşmaları, "...Teatr işlərimizin belə bir gülünc hala gəlməyini" [2] şərtləndirən amilləri qabartmaları Cəfər Cabbarlı və onun həmfikirlərini mövcud utancverici duruma açıq etirazlar səsləndirməyə həvəsləndirmişdir.

C.Cabbarlının teatra həssas münasibəti, bu sənət məbədinin acısı və sevinci ilə yaşaması gənc ədibin incəsənətin bu sahəsinə onun böyük arzular, ümidlər bəsləməsi ilə şərtlənir. Professor, cabbarlışünas alim A.Rüstəmli "Cəfər Cabbarlı: həyatı və mühiti" monoqrafiyasında sənətkarın teatra marağını, həvəsini, bağlılığını aşağıdakı fakta münasibət bildirməklə çox inandırıcı şəkildə isbatla-

mağa çalışmışdır: “C.Cabbarlının Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Cümhuriyyət dövründən əvvəl qeydlər apardığı güman edilən bir cib dəftərçəsi saxlanılır. Burada ədibin öz taleyini əbədi olaraq dramaturgiyaya, teatra bağlamasının “sirləri” açılır. İctimai həyatda teatrın əhəmiyyətini Cabbarlı yüksək qiymətləndirərək yazırdı: “Teatro – ölkənin bulunduğu mədəni yüksəkliyi, mədəniyyət dərəcəsini göstəriyor. Teatro yüksək bədii bir dərəcədədirsə, (deməli) ölkə də ümumən gözəl inkişaf etmişdir. Mədəniyyət – elm və sənətdən ibarətdir. Teatro isə sənətin başqa qismlərini birləşdiriyor” [3].

Cəfər Cabbarlı haqlı olaraq teatrı hər bir xalqın mədəniyyət meyarı, sənət barometri, təkamül göstəricisi kimi dəyərləndirirdi. Ölkənin, dövlətin iqtisadi tərəqqisi o cəmiyyətin mənəvi qüdrətindən güc alır, milli dəyərlərin zənginliyindan boy göstərir, stimullaşır. Teatr elə bir sənət sahəsidir ki, incəsənətin bir neçə qolunu, janrını özündə ehtiva edərək inkişafına təkan verir, insanları saflığa, birliyə, bütövlüyə, quruculuğa, azadlığa, vətənsevərliyə səsləyir. Sinkretik, çoxşaxəli, tandem əlaqələrə güvənli bu sənət sahəsinin insanlara təsir imkanlarını hələ yeniyetməlik, gənclik illərindən duyan, düşünən, maarifçilik ideyalarını gerçəkləşdirmək, həyata keçirmək üçün səhnə həyatı ilə nəfəs alan, uğurlarına sevinən, qüsurlarına acıyan, problemlərin çözümünə çarə axtaran, ümidsizlik dalanından çıxmaq üçün yol göstərməyə çalışan, ən azı buna cəhd edən Cabbarlı teatr tamaşalarını mütəmadi izləməkdən yorulmaz, fikirlərini qəzet vasitəsilə sənət adamlarının və teatrsevərlərin diqqətinə açıq və birmənalı çatdırmaqdan çəkinməzdi. Tədqiqatçıların qənaətinə görə, dövri mətbuat orqanlarında Cəfər otuzdan çox gizli və ya yarımgizli imzalardan istifadə etmişdir. Yaradıcılığının ilk mərhələsində, “C.C.” örtülü imzasından sıx-sıx bəhrələnən C.Cabbarlı bir neçə səhnə əsəri haqqında isti-isti resenziyalar yazaraq qəzetlərdə yayınlatmışdır. Belə resenziyalardan biri də 1916-cı il sentyabr ayının 18-də “Sovqat” qəzetində çap etdirdiyi “Aşıq Qərib” adlı yazısıdır.

“Aşıq Qərib” Azərbaycanın görkəmli bəstəkarı Zülfüqar Hacıbəylinin ilk opera əsəridir. Birinci dəfə əsər Abbas Mirzə Şərifzadənin rejissorluğu və Z.Hacıbəylinin dirijorluğu ilə 9 sentyabr 1916-cı ildə Hacı Zeynalabdin Tağıyevin Teatrında səhnələşdirilmiş və geniş tamaşaçı auditoriyasına təqdim olunmuşdur. C.Cabbarlı isə “Aşıq Qərib”in xüsusilə sentyabrın 15-də nümayiş etdirilən ikinci tamaşasına baxdıqdan sonra əsər haqqında təəssüratlarını qələmə alaraq yazırdı: “Hacıbəylilərin bu il opera fəqərəsinə artıq diqqət etmiş olmalarındandır ki, həm keçən dəfə və həm də bu dəfə oyunlar yaxşı keçdi. Ancaq bunu tövsiyə edirik ki, “Aşıq Qərib” operasında bəzi xorlar dəyişib, yerlərinə qulağa daha xoş gələn münasib xorlar qoyulmalıdır. Artistlərdən hər biri öz vəzifələrinin yaxşı keçməsinə səy edirdilər. 1-ci və 2-ci pərdələr az sovuq keçsə də, lakin 3-cü pərdədə Sarabski ilə Ağdamskinin şikəstə ilə mükalimələri cəmaətin artıq dərəcədə diqqətini cəlb etdi [4].

“Aşıq Qərib” haqqında verilən bu yığcam məlumatdan əxz etmək olur ki, C.Cabbarlı operanın hər iki tamaşasını diqqətlə izləmiş, səhnə əsərinin ilk təqdimatından sonra fikrini geniş ictimaiyyətə çatdırmağa tələsməmişdir. Hər iki tamaşada Aşıq Qərib rolunun ifaçısı, görkəmli opera aktyoru Hüseynqulu Sarabskinin və Şahsənəm roluna səhnə təcəssümü verən, qadın rollarının bənzərsiz ifaçısı Əhməd Ağdamskinin “şikəstə ilə mükalimələri” tamaşaçı auditoriyasının ciddi marağına səbəb olmuşdur. Opera əsərinin bədii məziyyətlərini bütövlükdə yüksək dəyərləndirən gənc Cabbarlını forma və məzmun baxımından xorun fəaliyyəti yetərincə razı salmamışdır.

Əsərdə rəqs parçalarını peşəkarlıqla icra edən aktrisalardan Olenskaya bacılarının istedadını vurğulayan gənc müəllif Aşıq Səlim rolunun ifaçısı Cəlil Bağdadbəyov haqqında məmnunluqla yazırdı: “Bağdadbəyov cənablarının gözəl və gur səsi camaata xoş gəldiyi kimi Aşıq Səlim rolunu həqiqətən də gözəl ifa etdi. Bu oyunun nöqsanı bəzən xorlar ilə musiqinin həmahəng olmaması idi ki, buna da Hacıbəyli qardaşlarının nəzər diqqətini ayrıca cəlb edirik. Bir də Sarabski cənablarının axırıncı pərdədə vaxtından əvvəl çıxıb getməsi səhnədə qalanların sözlərini mənasız buraxdı. Teatroda cəmaət çox idi...” [4].

Göründüyü kimi, Cəfər Cabbarlı yeni opera əsərinin ilk tamaşalarını bəyənsə də, oradakı qüsurları qabartmaqdan vaz keçməmişdir. Hüseynqulu Sarabski kimi geniş miqyasda – teatr camesində tanınan, sevilən bir aktyorun tamaşanı vaxtından əvvəl tərk etməsini yalnız sənətkarın deyil,

bütövlükdə təşkilatçıların ciddi qüsuru kimi qeyd etmişdir.

Səhnə əsərinin təcəssümü zamanı tamaşaçı amili gənc ədibin diqqətindən yayınmamışdır. Hər hansı bir dram əsərinin baxımlılıq meyarını tamaşaçı marağı ilə dəyərləndirən C.Cabbarlı "Teatroda camaat çox idi" – qənaətinə gəlməklə Zülfüqar Hacıbəylinin "Aşıq Qərib" operasının ictimai diqqətin obyektinə çevrildiyini nişan vermişdir.

Cəfər Cabbarlının "Sovqat" qəzetində eyni gizli imza ilə dərc etdirdiyi digər bir yazısı Üzeyir Hacıbəylinin "Əsli və Kərəm" operası haqqındadır. Böyük bəstəkarımız 1912-ci ilin may ayında ilk dəfə tamaşaya qoyulan yeni operasında eyniadlı məhəbbət dastanının motivlərindən bəhrələnmişdir (Son illərin tədqiqatları təsdiqləyir ki, sovet dövrünün ədəbiyyatşünaslığında məqsədli şəkildə qabardıldığı kimi Əsli erməni keşişinin yox, alban (arnavud) keşişinin qızıdır).

Görkəmli teatr tədqiqatçısı Qulam Məmmədlinin araşdırmalarına görə, Opera Teatrında ilk tamaşası nümayiş olunan əsərin baş rollarında – Kərəm obrazını canlandıran – Nasiri, Əsli rolunu isə Binəqədinski [5] ifa etmişdir. "Nicat" cəmiyyətinin təşəbbüsü ilə "Əsli və Kərəm" operası 1912-ci ilin noyabrında yenidən səhnə həyatını yaşamış, operanın rejissoru Hüseyn Ərəblinski, drijoru Müslüm Maqomayev olmuş, baş rollarda Hüseynqulu Sarabski (Kərəm), Əhməd Ağdamski (Əsli), Məhəmməd Hənəfi Terequlov (Qara keşiş) çıxış etmişlər. Üzeyir bəy Hacıbəylinin milli muğam musiqimizlə süslədiyi, Humayun, Qarabağşikəstəsi zərbi muğamı, Bayatı-Şiraz və Şikəsteyi-fars muğamlarının melodiyasından bəhrələnərək yazdığı "Əsli və Kərəm"i cəsarətlə muğam operası da adlandırmaq olar. Az vaxtda geniş şöhrət qazanan, 4 pərdəli, 6 şəkilli bu muğam operası Bakıda, Şuşada, Ağdamda, Naxçıvanda, sonralar isə Tiflisdə, İranda, Orta Asiyada anşlaq ilə tamaşaya qoyulmuşdur.

1916-cı ilin sentyabr ayında tamaşaya qoyulan "Əsli və Kərəm" operasının uğurlarına diqqət yetirən Cəfər Cabbarlı "Sovqat" qəzetində yazırdı: "Yekşənbə gecəsi, sentyabrın 18-də Tağıyevin Teatrında bu mövsümdə birinci dəfə olaraq Üzeyir bəy Hacıbəylinin "Əsli və Kərəm" adlı operası mövqeyi-tamaşaya qoyulmuşdur. Bu opera hər bir cəhətdən xoş keçdi. Artistlərin gözəl oynaması, səhnənin mükəmməlliyi, xorların musiqi ilə həmahəng olması oyunun gözəl keçməsinə səbəb oldu.

Musiqini müəllif özü ifa edirdi. Camaat çox idi. Biletlər qurtardığı üçün xeyli adam tamaşa etməmiş geri qayıtdılar. Bunu görən müdiriyyət bu sentyabrın 23-də təkrar "Əsli və Kərəm"in mövqeyi-tamaşaya qoyulacağını elan etdi" [6].

Teatra tamaşaçı axını, opera həvəskarları üçün biletlərin qəhətə çıxması, zalda yer tapa bilməyənlərin təəssüflənərək geri qayıtması C.Cabbarlının dahi Üzeyir bəy sənətinə, böyük sənətkarın xalq qarşısında məsuliyyət duyğusuna verdiyi yüksək dəyərin ifadəsidir.

**Nəticə.** Teatr mühitinin ən tutqun, mürəkkəb dövründə, zamanında operasevərlərə sənət sevinclərinin yaşadılması, opera sənətinin inkişaf etdirilməsi, milli aktyorların yetişdirilməsi sahəsində qara, qalın pərdələri yararaq işığa, tərəqqiyə doğru inadkarlıqla göstərilən cəhdlər gənc Cabbarlının böyük arzuları, amalları ilə vəhdət təşkil edirdi. O, 1915-1916-cı illərdə "Babayi-Əmir" satirik jurnalında çap etdirdiyi "Şair və artist" (05.08.1915), "Aktyor" (03.06.1916), "Uzun dərya" (10-17.06.1916), "Dram cəmiyyəti" (01.07.1916) və s. əsərlərində teatr, aktyor sənətinin taleyi, problemləri ilə bağlı qayğıları satirik üslubda geniş oxucu auditoriyasının diqqətinə çatdırırdı. Milli teatrımızın tərəqqisində Cəfər Cabbarlının xüsusilə Cümhuriyyətəqədərki dönəmdə dövri mətbuat orqanlarında dərc etdirdiyi məqalələrin, resenziyaların, məlumatların, düşüncələrin əhəmiyyəti danılmazdır.

## ƏDƏBİYYAT


1. Cabbarov Cəfər, Cavadov Məhəmməd Cavid, Quliyev Nemət və b. Açıq məktub. Bakı, "Yeni iqbal" qəz., 1916, 30 mart, № 269.
2. Talıblı Böyükağa. İdarəyə məktub. "Doğru söz", Bakı, 1916.
3. Rüstəmli Asif. "Cəfər Cabbarlı: həyatı və mühiti". Bakı, "Elm", 2009.
4. C.C. Aşıq Qərib. Bakı, "Sovqat" qəz., 1916, 18 sentyabr, № 15.
5. Azərbaycan teatrının salnaməsi (toplayanı və tərtib edəni Qulam Məmmədli). Bakı, Azərnəşr, 1975.
6. C.C. Əsli və Kərəm. Bakı, "Sovqat" qəz., 1916, 20 sentyabr, № 17.